**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.107**
**UOT: 5901.01**

# SOYUQ MÜHARİBƏDƏN SONRA TÜRKİYƏNİN XARİCİ SİYASƏTİNDƏ DƏYİŞİKLİK

**Cavid İSMAYILZADƏ**[*]

***Açar sözlər:*** *Türkiyənin xarici siyasəti, Qonşularla sıfır problem siyasəti, çoxşaxəli xarici siyasət, proaktiv diplomatiya*

## XÜLASƏ

Soyuq müharibədən sonra Türkiyənin xarici siyasətində əhəmiyyətli dəyişikliklər olmuşdur. İkiqütblülüyün sona çatması ilə dünyada və regionda baş verən proseslər Türkiyə üçün həm yeni perspektivləri həm də yeni riskəri və problemləri özündə ehtiva edərək xarici siyasətin formalaşmasına təsir göstərmişdir. Bu dövrdə ənənəvi yanaşma və istiqamətlər dəyərləndirilmiş, yeni istiqamətlər inkişaf etdirilmişdir. Həmçinin XXI əsrin əvvəllərindən etibarən bütün sahələrdə olduğu kimi xarici siyasət sferasında da mühüm dəyişikliklər olmuş, fəal, dinamik və çoxistiqamətli xarici siyasət həyata keçirilməyə başlanılmışdır. Türkiyə çoxşaxəli və çox istiqamətli xarici siyasət həyata keçirmək üçün xarici siyasət vasitələrini və mexanizmlərini də inkişaf etdirmiş, xarici siyasəti gücləndirmək üçün beynəlxalq təşkilatlarda təsirli mövqeyə malik olmuş, xarici siyasət həyata keçirən mövcüd qurumlarım aktivləşdirilməsinə və xarici siyasəti gücləndirəcək yeni qurumların yaradılmasına, potensial sosial-mədəni gücün xarici siyasətə əks etdirilməsi və geostrateji mövqeyin avantajlarından maksimum istifadə etməyə çalışmışdır. Türkiyə həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində həm region, həm də bütün qlobal aktorlarla münasibətlərini inkişaf etdirmiş, beynəlxalq münasibətlərdə mühüm aktorlardan birinə çevrilmişdir**.**

Soyuq müharibədən sonra beynəlxalq münasibətlərdə olduğu kimi Türkiyənin xarici siyasətində mühüm dəyişikliklər baş vermişdir. Qeyd olunan dövrdə xarici siyasətdəki klassik yanaşma və istqamətlər dəyərləndirilmiş, alternativ perspektivlər ortaya qoyularaq yeni istqamətlər inkişaf etdirilmişdir.(4, s.46)

Soyuq müharibədən sonrakı ilk illər bəzi siyasətçilər tərəfindən Qərb təhlükəsizliyi üçün Türkiyənin strateji əhəmiyyətinin azalması kimi şərh edilirdi. Lakin Körfəz Müharibəsi, Balkanlarda, Cənubi Qafqazda baş verən hadisələr Türkiyəni əhatə edən coğrafiyalarda sərhəd, etnik, millətçilik və s. motivlər əsasında olan münaqişələr, enerji qaynaqlarının daşınmasında Türkiyənin rolu hələ də onun geostrateji cəhətdən əhəmiyyətli ölkələrdən biri olacağını göstərirdi. Dünyada ikiqütblülüyün sona çatması, qloballaşma prosesisinin sürətlənməsi, SSRİ-nin süqutu nəticəsində dövlətlərin öz müstəqilliyini əldə etməsi, Balkanlarda, Cənubi Qafqazda, Yaxın Şərqdə münaqişə ocağlarının yaranması Türkiyə üçün həm yeni perspektivləri həm də yeni riskəri və problemləri özündə ehtiva edərək xarici siyasətin formalaşmasına təsir göstərmişdir. Ahmet Davudoğlu Strateji Dərinlik kitabında Yaxın Şərq, Cənubi Qafqaz, Balkanların Türkiyənin üç yaxın quru hövzəsi olduğunu, Türkiyənin beynəlxalq münasibətlərdəki mövqeyinin bu regionlardakı effektivliyindən aslı olduğunu və buna görə də bu regionlarda aktiv siyasət həyata keçirməyə çalışmağın zəruri olduğunu qeyd edir(2, s.118). Türkiyə SSRİ-nin dağılmasından sonra müstəqillik əldə etmiş Mərkəzi Asiya, Cənubi

[*] *AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun doktorantı.*
*E-mail: ismayilzadecavid96@gmail.com*

Qafqaz dövlətləri ilə sıx əlaqələr qurmuş, əməkdaşlığını inkişaf etdirmişdir. Geostrateji cəhətdən mühüm əhəmiyyət kəsb edən bu regionlarla münasibətlərin inkişafı Türkiyə üçün mühüm əhəmiyyətə malik idi. Xüsusilə ortaq tarix, dil, mədəniyyətə malik olduğu türk respublikaları ilə yüksəksəviyyəli əməkdaşlıq qurulmuş və inkişaf etdirilmişdir. Türkiyə bu dövrdə yalnız bu dövlətlərlə deyil, həmçinin Orta Şərq və Balkan dövlətləri ilə də münasibətlərini inkişaf etdirmiş və bu regionlarda fəal xarici siyasət həyata keçirmişdir. Lakin bu regionlarda qlobal aktorların maraqlarının toqquşması, Türkiyənin iqtisadi və s imkanlarının məhdudluğu və bu ölkələrdə baş verən siyasi, iqtisadi problemlər Türkiyənin həmin ölkələrlə münasibətlərində balanslı siyasət həyata keçirməsinə səbəb olmuş və arzuolunan səviyyədə inkişaf edə bilməmişdir.

Soyuq müharibə dövründə Türkiyənin xarici siyasətində daha çox qərbyönümlü və status-kvo istiqaməti üstünlük təşkil edirdisə, müharibədən sonra çoxistiqamətli, çevik və dinamik xarici siyasətin həyata keçirilməsi zəruri idi. Həmin dövrdə xarici siyasətin inkişafı istiqamətində mühüm addımlar atılmış, lakin iqtisadi, siyasi, təhlükəsizlik məsələləri, həmçinin yaxın regionlarda artan problemlər səbəbindən xarici siyasətin istənilən səviyyədə inkişafı təmin edilə bilməmişdi. Həmçinin bu dövrdə yaranan dinamik konyuktura çoxşaxəli xarici siyasətin inkişafi üçün əlverişli şərait yaratmış daxili və xarici siyasət əhəmiyyətli transformasiyaya məruz qalmağa başlamışdı. Qlobal və ya regional bir aktor olmağa çalışan Türkiyənin keçmişdə olduğu kimi biristiqamətli xarici siyasət həyata keçirməsinin düzgün olmadığı qəbul olunmuş, beynəlxalq münasibətlərdəki inkişaflara paralel olaraq "status-kvo passiv xarici siyasət" yanaşması "aktiv xarici siyasət" yanaşmasına çevrilməyə başlamışdır. Milli maraqlara uyğun olaraq, Türkiyə iqtisadi, siyasi, təhlükəsizik və. s sahələri yalnız Qərblə deyil, həmçinin Türk dünyası, İslam dünyası, Balkan ölkələri, Cənubi Qafqazla şaxələndirməyə çalışmışdır.

Soyuq müharibə dövründə daha çox təhlükəsizlik mərkəzli xarici siyasət həyata keçirən Türkiyə 2000-ci illərdən sonra çoxşaxəli və çox istiqamətli xarici siyasət həyata keçirmək üçün xarici siyasət vasitələrini və mexanizmlərini də diversifikasiya etmiş, inkişaf etdirmişdir. Xarici siyasəti gücləndirmək üçün beynəlxalq təşkilatlarda təsirli mövqeyə malik olmuş, xarici siyasət həyata keçirən mövcüd qurumlarım aktivləşdirilməsinə və xarici siyasəti gücləndirəcək yeni qurumların yaradılmasına, potensial sosial-mədəni gücün xarici siyasətə əks etdirilməsi və geostrateji mövqeyin avantajlarından maksimum istifadə etməyə çalışmışdır.

XXI əsrin əvvəllərindən Ədalət və İnkişaf Partiyasının(Adalet ve Kalkınma Partisi, (AKP)) hakimiyyətə gəlməsilə bütün sahələrdə olduğu kimi xarici siyasət sferasında da əhəmiyyətli dəyişikliklər olmuş, fəal, dinamik və çoxistiqamətli xarici siyasət həyata keçirilməyə başlanılmışdır. Türkiyə həm region dövlətləri ilə, həm də digər dövlətlərlə iqtisadi, siyasi və mədəni səviyyədə münasibətlərini inkişaf etdirmiş, beynəlxalq təşkilatlarda aktiv fəaliyyət göstərmişdir. Bu dövrdə xarici siyasətini yeni prinsiplər çərçivəsində həyata keçirən Türkiyə qonşuları ilə sıfır problem siyasəti həyata keçirməyə diqqət yetirmiş, regionda və dünyada nizam-intizam quran bir aktor olmağa çalışmış, proaktiv xarici siyasət yürütmüşdür.(3, s.127) Regional və qlobal güc olma istiqamətində xarici siyasətini formalaşdıran Türkiyə mühüm irəliləyişlər əldə etmişdir.

Türkiyənin xarici siyasətində əsas prinsiplərdən biri onun siyasətinin çoxşaxəli və çoxölçülü olmasıdır. AKP-nin önəm verdiyi məsələlərdən biri olan bu yanaşma müxtəlif ölkələr və regioanlarla münasibətlərin qurulmasını əks etdirməklə yanaşı xarici siyasət vasitələrinin müxtəlifliyini də özündə ehtiva edir. Belə ki, Soyuq müharibə dövründə olduğu kimi birtərəfli və statik xarici siyasətin həyata keçirilməməsinin zəruriliyi anlaşılmış və bütün qlobal aktorlarla əlaqələrini şaxələndirməli olduğu qənaətinə gəlinmişdir. Bu tendensiya Türkiyənin xarici siyasətində yeni anlayış olmasa da 2000-ci illərdən sonra daha fəal şəkildə həyata keçirilmişdir. Milli maraqlara əsaslanmaqla iqtisadi, siyasi, təhlükəsizlik və.s sahələrdə bütün dövlətlərlə çoxşaxəli xarici siyasətin aparılması artıq zərurət halını almışdır. AKP çoxşaxəli siyasəti ilə Türkiyənin xarici siyasətində Qərb yönümünü Türk Dünyası, Yaxın Şərq, Afrika qitəsi, İslam Dünyası, Balkanlar və Qafqaz kimi yeni ərazilərlə şaxələndirməyə çalışmışdır.

Həmçinin bu dövrdə əsas xarici siyasət istiqamətlərindən birini aktiv diplomatiya çərçivəsində proaktiv diplomatiya yanaşması təşkil edirdi. Proaktiv diplomatiya prinsipi Türkiyənin 2000-ci illərə qədərki ənənəvi xarici siyasət strategiyalarından fərqli xüsusiyyətlərə malik dinamikalardan biri kimi meydana çıxır. Bu prinsip çərçivəsində beynəlxalq təşkilatlarda aktiv fəaliyyət, regional münaqişələrdə vasitəçilik, ritmik diplomatiya, regional inkişafa dəstək və maksimum əməkdaşlığın qurulması hədəflənmişdir.

Operativ xarici siyasət prinsiplərindən biri olan ritmik diplomatiya xarici əlaqələrin eyni vaxtda müxtəlif sahələrdə koordinasiyalı və ziddiyyətsiz şəkildə həyata keçirilməsini nəzərdə tutan prinsipdir. Beynəlxalq əlaqələrdə daha fəal olmağı nəzərdə tutur, beynəlxalq təşkilatlarda, qlobal beynəlxalq gündəmlərin qiymətləndirilməsi və idarə olunmasında bir aktor kimi olmasını dəstəkləyən bir yanaşmadır. Ritmik diplomatiya vasitəsilə Türkiyə NATO, Aİ, İKT kimi stratejik əhəmiyyətə malik təşkilatlarla yanaşı İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında da mövqeyini gücləndirmişdir. Ritmik diplomatiya prinsipi vasitəsilə Türkiyə təkcə təhlükəsizlik deyil, iqtisadi, siyasi, sosial və. s sahələrdə inkişafını dəstəkləyən fəaliyyətlər həyata keçirmişdir.

Türkiyənin xarici siyasətində təsir gücünü artıracaq vasitələrdən biri də regional və qlobal münaqişələrdə vasitəçilik missiyasıdır. Türkiyə ciddi problemlərin yaşandığı beynəlxalq münaqişələrin və regional böhranın mərkəzində olmuş, Türkiyəni əhatə edən bölgələrdə münaqişələrin həlli və sülhün bərqərar olması üçün tez-tez vasitəçilik missiyası həyata keçirmişdir. Türkiyə Yaxın Şərq, Balkanlar və Asiyada vasitəçilik missiyasını öz üzərinə götürərək bölgədə fəal rol oynamağa çalışmışdır. (1, s.158) Yerləşdiyi geostrateji mövqe etibarilə, regionda baş verən problemlər Türkiyənin təhlükəsizliyinə də təsir edir və münaqişələr regional inteqrasiyanın həyata keçirilməsinə mane olur. Regional güc olmaq istəyən Türkiyə bu münaqişələrin həlli istiqamətində mühüm addımlar atmışdır. Bir tərəfdən xroniki regional mübahisə və münaqişələrdə vasitəçi rolunu oynayaraq öz fəaliyyət sahəsini təkmilləşdirmək ümidi ilə hərəkət edən Türkiyə, digər tərəfdən “qonşularla sıfır problem” arqumentini həyata keçirib, qonşuları ilə tarixi fikir ayrılıqlarını aradan qaldırmağa çalışmışdır. Vasitəçilik prinsipi kontekstində Türkiyənin rolu həm də nizam-intizam qurucusu olmaq istəyidir. Çünki Türkiyənin yaxın ətraflarında yaşanan böhran istər-istəməz ölkənin daxilinə də təsir edə bilər. Bu səbəbdən Türkiyə beynəlxalq problemlərə laqeyd qalmamış və digər ölkələrin təhlükəsizlik problemlərinin həllinə yardım etməsini öz ölkəsinin təhlükəsizliyinə böyük və mühüm töhfə verəcəyini düşünmüşdür. Ölkələr arasında yaşanan münaqişələrdə həyata keçirdiyi vasitəçilik missiyaları Türkiyənin beynəlxalq münasibətlərdə sülhün qorunub saxlanılmasında mühüm əhəmiyyətə malik olan bütün dövlətlərlə normal münasibətlər qurmasına gətirib çıxarmışdır. Türkiyə vasitəçilik rolu ilə həm təhlükəsizliyini təmin etmiş, həm də regionda mühüm, söz sahibi aktor olduğunu sübut etmişdir.

Qonşularla sıfır problem yanaşmasını da proaktiv diplomatiyanın bir hissəsi kimi dəyərləndirmək olar. Türkiyə bu siyasət vasitəsilə regionda daha təsirli olmağa çalışmışdır. Bu dövrdə əsas xarici siyasət istiqamətlərindən birini qonşularla sıfır problem təşkil edirdi. Cumhuriyyət qurulduğu dövrdən demək olar ki, Türkiyənin bütün qonşuları ilə problemləri olmuşdur. 2002-ci ildən sonra bu “problemli” münasibətləri “sıfır problem”ə endirmək üçün yeni dövrün başlanğıcı oldu və “Qonşularla sıfır problem” siyasəti fəal şəkildə həyata keçirildi. Qonşuları ilə problemlərini minimuma endirmək, uzun zaman mövcud olan problemləri aradan qaldıraraq daha dinc və təhlükəsiz bölgə yaratmaq istəyən Türkiyə bu siyasəti bütün sərhəd qonşuları üçün həyata keçirməyə başlamışdır.(5, s.105) Bu yanaşmanın əsas məqsədi dövrü olaraq qonşularla problemləri olan Türkiyənin problemlərini həll etmək, ən azından mümkün qədər azaltmaq idi. Qonşuları ilə problemləri olan bir ölkənin regional və ya qlobal səviyyədə xarici siyasət həyata keçirməyinin imkansız olduğu düşünülmüş və qonşularla münasibətlərin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Atatürkün “Yurdda Sülh, Cahanda Sülh” ifadəsinin regional səviyyədə həyata keçirilməsi kimi qiymətləndirilməli olan “qonşularla sıfır problem” prinsipi Türkiyənin qonşularına qarşı xoş niyyətli yanaşmasını əks etdirməklə yanaşı, regional güc olaraq mövqeyini gücləndirəcək şəkildə

qonşu dövlətlərlə münasibətlərində sabitliyin olmasını zəruri edir. Bu xoş niyyətli yanaşmanın əsas məqsədi bütün qonşularla dialoq yolu ilə problemləri müzakirə etmək, onların həlli üçün yollar axtarmaq və bütün tərəflərin qalib gələcəyi, etibar və sabitliyin bərqərar olacağı bir məkan yaratmaqdır. Bu siyasət nəticəsində bəzi qonşularla iqtisadi, siyasi sahələrdə əməkdaşlıq qurulmuş, münasibətlər daha da inkişaf etdirilmişdir. Uzun illərdir demək olar ki, bütün qonşuları ilə problem yaşayan Türkiyənin bu tezisi irəli sürərkən ölkənin iqtisadi-siyasi cəhətdən güclü mövqedə olması, qloballaşmanın təsiri və. s səbəblərdən bu siyasətin uğurlu olduğunu söyləmək olar. Qeyd edək ki, geostrateji cəhətdən dünyanın qaynar bölgələrindən birində yerləşən Türkiyənin qonşuları ilə münasibətlərində bəzən problemlər yaşanmış və bu siyasət idealist yanaşma olduğu üçün tənqidlərə məruz qalmış və müzakirə obyekti olmuşdur. Türkiyə düşmən qonşuların əhatəsində olmaq psixologiyası əvəzinə bütün qonşularla yaxşı münasibət qurmaq anlayışını mənimsəmiş, uzaq və yaxın qonşularla siyasi, iqtisadi, mədəni təmas və qarşılıqlı fəaliyyətə əsaslanan münasibətlər şəbəkəsi qurmuşdur. Bu rabitə şəbəkəsi qonşuları ilə problemlərini dondurmaq əvəzinə sülh yolu ilə həll yolu tapmağı hədəfləyir.(6, s.30) Qonşu ölkələrlə mövcud problemləri minimuma endirməyi hədəfləyən bu yanaşma AKP-nin çox müzakirə olunan xarici siyasət prinsipi olsa da, bu müddət ərzində regiondakı təsirini artırmağı və qlobal məsələlərə qarışmağı hədəfləyən Türkiyənin qonşuları ilə münasibətləri normallaşdırması və inkişaf etdirməsi mühüm əhəmiyyətə malik idi. Qonşularla sıfır problem" siyasəti hələ bitmiş siyasət deyil və proses davam edir. Bu siyasətdə qətiyyətlilik Türkiyəyə və bölgəyə fayda verəcəkdir. Türkiyənin həm regionda, həm də digər regionlarda sülh və təhlükəsizliyə aid məsələlərdə aktiv olmağa çalışması onun həyata keçirdiyi xarici siyasətin tələbidir. Türkiyə hədəflərinə çatmaq üçün klassik üsullar və sərt güc vasitələri ilə yanaşı yumşaq güc vasitələrindən də istifadə etmişdir.

Soyuq müharibədən sonra beynəlxalq münasibətlərdə yumşaq güc vasitələri, diplomatik fəaliyyətlər mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Böyük tarixi və mədəni irsə malik, Asiya, Avropa və Afrika olmaqla üç qitəni birləşdirən mühüm coğrafi kəsişmə nöqtəsində yerləşən bir ölkə olaraq Türkiyə bir çox mühüm sivilizasiyalara ev sahibliyi edib və mühüm yumşaq güc qaynaqlarına malikdir. Türkiyə son vaxtlar "ictimai diplomatiya" sahəsinin artan əhəmiyyətini kəşf edib və bu sahə ilə bağlı siyasətini şaxələndirib. Xüsusilə 2000-ci illərin əvvəllərində AK Partiya iqtidara gəlməsilə yumşaq güc vasitələrindən daha aktiv şəkildə istifadə edilməyə başlanılmışdır. Regional və qlobal güc olmağa çalışan Türkiyənin xarici siyasətdə diplomatik fəaliyyətinin rolu artmış, "sərt güclə" yanaşı, "yumşaq güc" vasitələrinin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Xarici siyasətin həyata keçirilməsində yumşaq güc həyata keçirən qurumlar və vasitələr artmış, xüsusilə ictimai diplomatiya sahəsində mühüm inkişaf olmuşdur. Bunun nəticəsində həm xarici siyasət daha təsirli həyata keçirilmiş, həm də xarici siyasətin təsir dairəsi genişlənmişdir. AK Partiya dövrünün xarici siyasətinin yeni aktorları olan ictimai diplomatiya qurumları Türkiyə xarici siyasətinin yeni kanal və mexanizmləridir. Bundan əlavə, bu yeni ictimai diplomatiya institutları xarici siyasət subyektlərinin, alətlərinin, diplomatiya üslub və üsullarının şaxələndirilməsini təmin etmişdir. Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Yunus Əmrə İnstitutu (YEE) və Türkiyə Radio Televiziya Qurumu (TRT) xarici siyasətdə çox mühüm yer tutan yumşaq güc elementləri arasındadır.

**Nəticə**

Beləliklə, tədqiq edilən dövrdə və şəraitdə Türkiyə həm region, həm də dünyanın bütün bölgələri ilə əlaqələrini inkişaf etdirmiş və yüksək səviyyəli əməkdaşlıq müqavilələri bağlamışdır. Regional gücdən fərqli olaraq, yalnız regional məsələlərdə deyil, dünyanın bütün bölgələri ilə münasibətlərini inkişaf etdirməyə, hər hansı qlobal məsələlərdə aktiv rol oynamağa çalışan Türkiyənin XXI əsrdən etibarən qlobal güc olma reflekslərini göstərdiyini demək olar.

Nəticə olaraq qeyd edək ki, XXI əsrdən etibarən Türkiyənin iqtisadi və siyasi cəhətdən inkişafı onun xarici siyasətdə təsir dairəsini artırıb. Türkiyənin iqtisadi baxımdan güclənməsi, güclü dövlət quruluşu, geostrateji cəhətdən beynəlxalq münasibətlərdə mühüm rola malik olması və. s amillər uğurlu xarici siyasətin həyata keçirilməsinə imkan yaratmışdır.

## ƏDƏBİYYAT:


1. Arıkoğlu Ündücü,C. Uluslararası sistemin aldığı yeni biçimin Türk dış politikasına etkileri / Kıbrıs örneği: / Dövlət idarəedilməsi bölməsi üzrə fəlsəfə doktoru diss./Dokuz Eylül Universiteti/Sosial Elmlər İnstitutu,2010-255 s.
2. Davutoğlu, A. Stratejik Derinlik, /- İstanbul: Küre Yayınları,- 2001.-600 s.
3. Er,A. Türk dış politikası'nda kültürel diplomasi: Yunus Emre Enstitüsü örneği: / Dövlət İdarəedilməsi bölməsi üzrə magistr diss./ Afyon Kocatepe Universiteti İctimai Elmlər institutu,2018-170 s.
4. İlter,M. Türk dış politikasının soğuk savaş sonrası önemde kurulan hükümetler perspektifinde incelenmesi: / magistr dissertasiyası./- Sakarya Universiteti Soisal elmlər institutu, 2012-179 s .
5. Gökçay,K. Statükoculuk'tan "Çok Yönlü Dış Politika'ya":"Komşularla Sıfır Sorun"değerlendirmesi: / Beynəlxalq münasibətlər üzrə magistr diss./Selçuk Universiteti/Sosial Elmlər İnstitutu, 2012-140 s.
6. Gürevin, E. 2000'li yıllarda Türkiye ve proaktif dış politika: / Beynəlxalq münasibətlər üzrə magistr diss./Ufuk Universiteti/Sosial Elmlər İnstitutu, 2014-130 s.


## РЕЗЮМЕ

*Джавид ИСМАИЛЗАДЕ*

### *Изменения во внешней политике Турции после холодной войны*

***Ключевые слова**: внешняя политика Турции, политика нулевых проблем с соседями, многосторонняя внешняя политика, активная дипломатия*

После Холодной войны во внешней политике Турции произошли существенные изменения. С окончанием биполярности процессы, происходящие в мире и регионе, повлияли на формирование внешней политики, содержащей как новые перспективы, так и новые риски и проблемы для Турции. За этот период были оценены традиционные подходы и направления, а также разработаны новые направления. Также с начала XXI века, как и во всех сферах, произошли важные изменения в сфере внешней политики, осуществляется активная, динамичная и разнонаправленная внешняя политика. Турция разработала внешнеполитические инструменты и механизмы для реализации многогранной и разнонаправленной внешней политики, имеет эффективную позицию в международных организациях по укреплению внешней политики, активизации существующих внешнеполитических институтов и созданию новых институтов, которые будут усиливать внешнюю политику. Россия, потенциальная социокультурная власть размышляла над внешней политикой и старалась максимально использовать преимущества геостратегического положения. В результате своей успешной внешней политики Турция развила отношения как с региональными, так и с глобальными игроками и стала одним из важных игроков в международных отношениях.

## ABSTRACT

***Javid ISMAYILZADA***

***Changes in Turkey's Foreign Policy After the Cold War***

**Keywords:** *Turkey's foreign policy, policy of zero problems with neighbors, multilateral foreign policy, proactive diplomacy*

Since the Cold War, there have been significant changes in Turkey's foreign policy. With the end of bipolarity, the processes taking place in the world and in the region have influenced the formation of foreign policy, containing both new perspectives and new risks and problems for Turkey. During this period, traditional approaches and directions were evaluated, and new directions were developed. Also, since the beginning of the XXI century, as in all fields, there have been important changes in the sphere of foreign policy. Active, dynamic, and multi-directional foreign policy has been implemented. Turkey has developed foreign policy tools and mechanisms to implement a multi-faceted and multi-directional foreign policy, has an effective position in international organizations to strengthen foreign policy, activation of existing foreign policy institutions and the creation of new institutions that will strengthen foreign policy, potential socio-cultural power reflection on foreign policy, and has tried to make maximum use of the advantages of geostrategic position. As a result of its successful foreign policy, Turkey has developed relations with both regional and global actors and has become one of the most important actors in international relations.